## Azərbaycan Respublikasının Ağdam və Şuşa rayonları ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 121—4-cü maddəsinin 16-cı bəndinə müvafiq olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Ağdam və Şuşa rayonları ərazisində yaşayan vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədi ilə, onların həyatı üçün erməni silahlı birləşmələrinin misli görünməmiş genişmiqyaslı döyüş əməliyyatları nəticəsində yaranmış real təhlükəni nəzərə alaraq bu rayonların ərazisində iki ay müddətinə fövqəladə vəziyyət elan edilsin.

2. Fövqəladə rejimin həyata keçirilməsi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və Müdafiə Nazirliyinə həvalə edilsin.

3. Fövqəladə vəziyyət dövründə:

- xüsusi gəliş-gediş rejimi müəyyən edilsin, habelə müvafiq buraxılış vərəqəsi olmadan nəqliyyat vasitələrinin bu rayonların ərazisində hərəkət sərbəstliyi məhdudlaşdırılsın;
- ictimai asayişin, xalq təsərrüfatının həyat və fəaliyyətini təmin edən obyektlərin mühafizəsi gücləndirilsin;
- yığıncaqlar, mitinqlər, küçə yürüşləri, nümayişlər, dikər kütləvi tədbirlər keçirilməsi qadağan edilsin;
- qadağan saatı müəyyən edilsin;

- vətəndaşların cəmləşdikləri yerlərdə sənədlərin yoxlanması təmin edilsin, lazım gəldikdə isə adamların üst-başı, əşyaları və nəqliyyat vasitələri yoxlansın;
- ərzaq məhsullarının və ən zəruri malların bölüşdürülməsinin xüsusi qaydası tətbiq edilsin;
- lazım gəldikdə əmək qabiliyyətli əhali fövqəladə vəziyyətin təmin olunması işinə səfərbər edilsin.

4. T. Y. Əliyev Ağdam rayonunun komendantı, R. H. Qazıyev Şuşa rayonunun komendantı təyin edilsinlər və bu Fərmanda və "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi üçün məsuliyyət onların üzərinə qoyulsun.

5. Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasına təklif olunsun ki, bu Fərmanı təsdiq etsin və Azərbaycan Respublikasının Ağdam və Şuşa rayonları ərazisində fövqəladə vəziyyət elan edilməsinin səbəblərini BMT-nin Baş katibinə bildirsin.

6. Bu Fərman Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən təsdiq edilən andan qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**

**A. MÜTƏLLİBOV.**

**Bakı şəhəri, 18 fevral 1992-ci il.**

**№ 577.**